# **Həftəlik**
# *Bülleten*



**121**
**12 Dekabr 2025**


Xəbərlər
Tədbirlər
Görüşlər
Tender və lahiyələr
Dünya tikililəri


ATMİA


info@atmia.az www.atmia.az

**Azərbaycanda yeni binalar enerji effektivliyi üzrə məcburi pasportlaşdırılacaq.**

Azərbaycanda yeni tikilən, yenidən qurulan, əsaslı təmir olunan yaşayış və qeyri-yaşayış binaları enerji effektivliyi üzrə məcburi pasportlaşdırılacaq. Bu, Milli Məclisin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanuna təklif edilən yeni - 17.3-cü maddədə əksini tapıb. Layihəyə əsasən, dünya, ölkə və yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilmiş binalar (tikililər), yardımçı və müvəqqəti tikililər, istixanalar və anbar binaları, istehsalat binaları, fərdi yaşayış evləri, Şəhərsalma və Tikinti Məcəlləsində göstərilən reklam qurğuları və həmin məcəllədə göstərilən, ekspertizadan keçirilməsi tələb olunmayan tikinti obyektləri istisna olmaqla, digər yaşayış və qeyri-yaşayış binalarının enerji effektivliyi üzrə pasportlaşdırılması məcburi xarakter daşıyacaq. Pasportlaşdırma bu qanun qüvvəyə mindikdən sonra yeni tikilən, yenidən qurulan, əsaslı təmir olunan yaşayış və qeyri-yaşayış binaları üçün məcburi olacaq, istismarda olan binalara şamil edilməyəcək. Qeyd edək ki, qüvvədə olan Qanunda binaların enerji effektivliyi üzrə pasportlaşdırılması qaydaları əksini tapıb və həmin qaydalar Nazirlər Kabineti tərəfindən təsdiq ediləcək.



**Qarabağ və Şərqi Zəngəzurda 50-dən artıq inşaat materialları yataqları aşkarlanıb.**

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 2020-2025-ci illər ərzində aparılmış geoloji-kəşfiyyat işlərinin nəticəsində lokal sahələri əhatə etməklə 50-dən artıq inşaat materialları yataqları aşkarlanaraq istifadəyə verilib. Bunu Şuşa şəhərində keçirilən Ekoloji məsələlər üzrə İşçi qrupun iclasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Kəşfiyyat Agentliyinin İdarə Heyətinin sədr müavini Şahin Ataşov deyib.

Onun sözlərinə görə, hidrogeoloji tədqiqatlar nəticəsində Qarabağ və Cəbrayıl dağətəyi düzənliklərinin yeraltı su yataqlarının ehtiyatları yenidən qiymətləndirilib.

Şahin Ataşov bildirib ki, filiz faydalı qazıntı yataqlarının axtarışı nəticəsində Ağdam rayonunun Çullu sahəsində və Xocavənd rayonunun Binə sahəsində perspektivli sahələr aşkarlanıb.

Kəhriz komplekslərindən Füzuli rayonu Yal Pirəhmədli kəhrizi, Cəbrayıl rayonu Çinar kəhrizi, Daş Veysəlli kənd kəhriziərində bərpa işləri aparılır. Hüseynağa kəhrizi və Hovusluda 6 kəhriz bərpa olunub.



**Bu il Azərbaycanda 25 minə yaxın ev tikilib.**

2025-ci ilin yanvar-sentyabr ayları ərzində Azərbaycanda ümumi sahəsi 3 milyon 174.4 min kvadrat metr olan 24 478 ədəd yaşayış evi tikilib istifadəyə verilib.

Dövlət Statistika Komitəsinin hesabatı əsasında aparılan hesablamalara görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə tikilən evlərin sayı 2.4 dəfə və ya 14196 ədəd artıb. Belə ki, 2024-cü ilin müvafiq dövründə ölkədə ümumi sahəsi 1 milyon 349.6 min kvadrat metr olan 10282 ədəd yaşayış evi tikilib istifadəyə verilmişdi.

Qeyd edək ki, hesabat dövründə tikilib istifadəyə verilmiş fərdi yaşayış və bağ evlərinin sayı 17685 ədəd ( illik müqayisədə 2.4 dəfə çox), bina evlərinin sayı isə 6 793 ədəd ( illik müqayisədə 2.2 dəfə çox) təşkil edib.

Xatırladaq ki, hesabat dövründə bu mənzillərin 17685 ədədi əhali tərəfindən, 6724 ədədi qeyri-dövlət müəssələri tərəfindən, 69 ədədi isə dövlət müəssələri tərəfindən tikilib istifadəyə verilib.



**AZPROMO: 100-dən çox türk şirkəti Qarabağ və Şərqi Zəngəzurdakı işlərdə iştirak üçün müraciət edib.**

İndiyə qədər 100-dən çox Türkiyə şirkəti Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən işlərdə iştirak üçün müraciət edib.

Bunu İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktorunun müavini Tural Hacılı Bakıda keçirilən II Azərbaycan-Türkiyə İnvestisiya Forumuna dair mətbuat konfrasında bildirib.

"Azərbaycan ərazilərinin işğaldan azad olunmasından sonra türk şirkətlərinin bərpa və yenidənqurma işlərində böyük aktivliyini görürük. Bildiyiniz kimi, Azərbaycanın Türkiyənin İstanbul şəhərində ticarət nümayəndəsi fəaliyyət göstərir və aktiv şəkildə türk iş adamlarının ölkəmizə səfərlərini təşkil edir. Demək olar ki, hər ay bir neçə nümayəndə heyəti qəbul edirik, imkanlarla tanış edirik. Sahibkarların aidiyyatı sahələrdə həmkarları ilə görüşlərini təşkil edirik. Eyni zamanda, investisiya forumu çərçivəsində Azərbaycana gələn türk iş adamlarının iqtisadi zonalara səfərləri təşkil olunacaq və oradakı imkanlarla tanış ediləcəklər", - deyə o qeyd edib.



**Gələn il "MyLift" elektron platforması istifadəyə veriləcək.**

"MyLift" elektron platforması 2026-cı ildə istifadəyə veriləcək.

Bunu Azərbaycan Sənaye Təhlükəsizliyi Assosiasiyasının İdarə Heyətinin sədri Orxan Xəlilzadə "Sənaye Təhlükəsizliyi Zirvəsi 2025" tədbirində bildirib. Onun sözlərinə görə, hazırda təhlükəli əməliyyatlarda süni intellekt dəstəkli qərarvermə sistemlərinin, proqnozlaşdırıcı analitikanın, rəqəmsal əkizlərin, sensor əsaslı "real-time" monitorinqin və insan-maşın əməkdaşlığının modellərinin yaratdığı transformasiya müzakirəsi mühüm əhəmiyyət kəsb edir: "Biz bir ildir üzərində çalışdığımız "MyLift" rəqəmsal platformasını 2026-cı ilin yanvar ayından etibarən istifadəyə verəcəyik". O qeyd edib ki, bu tətbiq vasitəsilə hər bir vətəndaş istifadə etdiyi liftin təhlükəsizliyi barədə məlumatı anında görə biləcək, liftlərin hansı texniki səviyyədə olduğuna dair göstəricilərlə tanış ola biləcək: "Real vaxt rejimində aparılan yoxlamalar da sistemdə əks olunacaq. Bu yeniliklə lift xidmətləri ilə bağlı şikayətlərin əhəmiyyətli dərəcədə azalacağı gözlənilir. Platforma 2026-cı ildə vətəndaşların istifadəsinə təqdim olunacaq".



**Azərbaycanda 11 ayda 57 mlrd. manatlıq sənaye məhsulu istehsal edilib.**

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2025-ci ilin yanvar-noyabr aylarında 57,5 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,1 % az sənaye məhsulu istehsal edilib. Bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbər verir. Qeyd edilib ki, neft-qaz sektorunda məhsul istehsalı 2,1 % azalmış, qeyri neft-qaz sektorunda isə 4,8 % artıb. Sənaye məhsulunun 60,6 %-i mədənçıxarma sektorunda, 33,0 %-i emal sektorunda, 5,4 %-i elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsal olunub. Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 4,7% azalmış, əmtəəlik qaz hasilatı isə 1,1 % artıb. Emal sektorunda ağacın emalı və ağacdan məmulatların istehsalı 60,9 %, rezin və plastik kütlə məmulatlarının istehsalı 13,7 %, neft məhsullarının istehsalı 9,6 %, kimya sənayesi məhsullarının istehsalı 8,7 % artmış, tikinti materiallarının istehsalı 3,4 %, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 4,3 %, metallurgiya sənayesi məhsullarının istehsalı 8,6 %, maşın və avadanlıqların istehsalı 8,7 %, hazır metal məmulatlarının istehsalı 9,7 %, mebel istehsalı 10,0 faiz, elektrik avadanlıqlarının istehsalı 11,2 %, kağız və karton istehsalı 26,2 %, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 33,9 % azalıb. Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 0,9 %, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 3,3 % artıb.



**ATMİA "Qarabağ KOB-ları layihəsi"nin 2025-ci il icrasına dair keçirilən tədbirdə iştirak edib.**

Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyası "Qarabağ KOB-ları layihəsi"nin 2025-ci il icrasına dair keçirilən tədbirdə iştirak edib. KOBİA, Dövlət Məşğulluq Agentliyi, "İnkişaf Korporasiyası" QSC və Milli Təhsil Texnologiyaları Mərkəzinin tərəfdaşlığı, "PAŞA Holdinq"in maliyyə dəstəyi ilə reallaşan layihə qazilər, müharibə iştirakçıları və şəhid ailələrinin məşğulluğuna dəstək məqsədi daşıyır. Layihə 2025-ci ildə Bakı, Abşeron, Sumqayıt, Gəncə, Goranboy, Mingəçevir, eləcə də Füzuli, Xocalı, Laçın və Şuşanı əhatə edib. Bu il 100 iştirakçı biznes və peşə təlimlərinə cəlb olunaraq avadanlıqlarla təmin olunub, layihəyə isə indiyədək ümumilikdə 220 nəfər qatılıb. Tədbirdə rəsmi çıxışlar, layihənin icrasına dair videoçarxın nümayişi və şəhid övladlarının rəsm əsərlərinin xeyriyyə auksionu da keçirilib.



**VEKARUS şirkətinin "Yeni nəsil giriş qapıları"na həsr olunmuş təqdimat tədbiri keçirildi.**

11 dekabr tarixində Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının tamhüquqlu üzvü VEKARUS şirkətinin "Yeni nəsil giriş qapıları"na həsr olunmuş təqdimat tədbiri keçirildi. Tədbirdə ATMİA-nın baş katibi, əməkdaşları və üzvləri iştirak edərək yeni məhsul xətti ilə bağlı təqdimatları izlədilər. İştirakçılar innovativ həllərin sənaye üçün yaratdığı imkanlar barədə müzakirələr apardılar. Tədbir tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi və tikinti materialları sektorunda yeniliklərin təşviqi baxımından əhəmiyyətli platforma oldu. VEKA Rus və VEKA AG, beynəlxalq VEKA qrupunun tərkibində fəaliyyət göstərərək PVC pəncərə və qapı profilləri üzrə qabaqcıl texnologiyaları regiona təqdim edən aparıcı istehsalçılardandır.



# SƏRGİ/KONFRANS/FORUM

## Sərginin adı: ARFEX 2025

**Tarixlər: 25-28 dekabr 2025-ci il,**

**Məkan: İsfahan Beynəlxalq Sərgi Meydanı, İsfahan (İran)**

İranda Memarlıq və Bərpa Sərgisi, tikinti sənayesinin inkişaf edən ehtiyaclarını ödəmək və qabaqcıl maşın və avadanlıqların tətbiqini təşviq etmək üçün dünya miqyasında sənaye liderlərini və mütəxəssislərini bir araya gətirməyi hədəfləyir.

## Sərginin adı: CERAMEX 2026

**Tarixlər: 02 - 05 Yanvar 2026 -ci il,**

**Məkan: Tehran Daimi Sərgi Meydanı, Tehran (İran)**

CERAFAIR, İran/Tehranda keçirilən Beynəlxalq Plitələr, Keramika və Sanitariya Məmulatları Sərgisidir.

## Sərginin adı: IRAN PIVEX 2026

**Tarixlər: 02 - 05 Yanvar 2026-ci il,**

**Məkan: Tehran Daimi Sərgi Meydanı, Tehran (İran)**

IRAN PIVEX sərgisi boru və fitinqlər, maşınlar və əlaqəli avadanlıqlar, klapanlar, nasoslar, filtrlər və s. kimi sənayedəki ən son məhsulların təqdimatı üçün uyğun bir platforma təmin etməyi hədəfləyir.

## Sərginin adı: ISF - IRAN STEEL FAB 2026

**Tarixlər: 12 - 15 yanvar 2026-ci il,**

**Məkan: Tehran Daimi Sərgi Meydanı, Tehran (İran)**

ISF İran Polad FAB - İran/Tehranda keçirilən İran Polad Konstruksiyaları İstehsalçıları, Əlaqəli Sənaye və Mühəndislik Xidmətləri Beynəlxalq Sərgisi

**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN "AZƏRTERMİNALKOMPLEKS" BİRLİYİ TENDER KEÇİRİR.**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin "Azərterminalkompleks" Birliyi açıq tender elan edib.
Elanda Dövlət Gömrük Komitəsinin Bakı Rəsmiləşdirmə Mərkəzinin tikintisi üçün layihə-smeta sənədlərinin hazırlanması xidmətinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Leyla Hacıyeva, İnspektor
Email: leyla.hajiyeva.11200@customs.gov.az
Əlaqə telefonu: +994 51 226 46 00



**"BAKI DÖVLƏT UNİVERSİTETİ" PUBLİK HÜQUQİ ŞƏXSİTENDER ELAN ETDİ.**

"Bakı Dövlət Universiteti" Publik Hüquqi Şəxsi açıq tender elan edib. Elan Bakı Dövlət Universitetinin Qazanxana binasının və "Yüksək Texnologiyalar Mərkəzi"nin inzibati binası üzrə dayandırılmış tikintinin davam etdirilməsi məqsədilə işlərin satın alınması əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Nailə Əsgərli, Şöbə müdiri
Email: nailaasgarli@bsu.edu.az
Əlaqə telefonu: +994 12 539 15 36



**"DAYANIQLI VƏ OPERATİV SOSİAL TƏMİNAT AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

"Dayanıqlı Və Operativ Sosial Təminat Agentliyi" Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Elanda Masallı DOST Mərkəzinin tikintisi və avadanlıqların satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Sücayət Əliyeva, Aparıcı mütəxəssis
Email: sujayat.f.aliyeva@sosial.gov.az
Əlaqə telefonu: +994 12 525 50 26



**"AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İMTAHAN MƏRKƏZİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

"Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi" Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Elan Bakı şəhəri, Nəsimi rayonu, Akademik Həsən Əliyev küçəsi, 299 ünvanında yerləşən əsas binada havalandırma və soyutma sistemlərinin illik profilaktika və ehtiyyat hissələrinin dəyişdirilməsi xidmətlərini əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

İlham Əliyev, Şöbə müdiri
Email: i.aliyev@dim.gov.az
Əlaqə telefonu: +994 12 310 53 16 (1704)



**"ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELAN EDİR.**

"Əsaslı Tikinti Və Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir.
Elan Zaqatala rayonunun inzibati ərazisində yerləşən Heydər Əliyev Mərkəzinin cari təmir işləri ilə bağlı layihə-smeta sənədlərinin hazırlanması xidmətinin satın alınması əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Teymur Məmmədov, Baş mütəxəssis
Email:tender@culture.gov.az
Əlaqə telefonu:+994 12 565 01 47





**www.atmia.az**